UOT 025.171 (479.24)
KBT Ч734 (0)

Azərbaycanla bağlı qiymətli kitablar xarici ölkə kitabxanalarında

N.C.Ağayeva
nur_agayeva_86 @mail.ru

Xülasə: *Məqalədə Kanada Milli Kitabxanası və Arxivində, eləcə də Danimarka Kral Kitabxanasında ölkəmizlə əlaqəli mühafizə olunan müxtəlif növ sənədlər haqqında məlumat verilmişdir.*
Açar sözlər: *müxtəlif növ sənədlər, kitabxana işi, Şərq fondu*
Ключевые слова: *различные типы документов, библиотечное дело, Восточный фонд*
Key words: *different type of documents, library science, Oriental fund*

Bəşər tarixindən məlumdur ki, hər bir əsr özünəməxsus mühüm inkişaf prosesi ilə, böyük elmi və mədəni əhəmiyyətə malik hadisələrlə xarakterizə olunur. Dünya alimləri XXI əsri "kompüterləşmə" əsri və "informasiya əsri" hesab etmişlər. Bunun əsas səbəbi informasiyanın cəmiyyətin əsas aparıcı atributlarından birinə çevrilməsi, sənaye cəmiyyətindən informasiya cəmiyyətinə sürətlə keçidlə əlaqədar idi. "İnformasiyalaşdırılmış cəmiyyətin yaradılması və daha da təkmilləşdirilməsi bilavasitə kommunikasiya sistemləri, informasiyanın alınması, işlənməsi və ötürülməsi prosesi ilə əlaqədar olduğundan cəmiyyətdə hər cür informasiyanın cəmiyyət üzvləri arasında yaymağı qarşısına məqsəd qoyan, informasiya resurslarını toplayıb saxlayan, nəsildən-nəslə ötürən informasiya müəssisələrinin ən mühümü kitabxanalardır.

Ona görə də, müasir informasiyalı cəmiyyətdə kitabxana işi ilə informasiya arasında çox sıx, qarşılıqlı əlaqələr meydana çıxıb formalaşmışdır.

Bu gün kitabxanalar informasiyalaşdırılmış vətəndaş cəmiyyətinin əsas göstəricisi olan qlobal informasiya mühitinin, beynəlxalq, milli və regional səviyyədə informasiya mübadiləsi sistemlərinin yaradılmasında, informasiyanın əmtəəyə çevrilməsində, informasiya və bilik bazarının yaradılması və inkişafında, təhsil sisteminin və səviyyəsinin təkmilləşdirilməsində, cəmiyyətin peşə və ümumi mədəni səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır [1].

Dünya kitabxanaları içərisində zəngin fonda malik olan kitabxanalardan biri də Kanadanın Milli Kitabxanası və Arxividir. Bu elm məbədi Kanadanın

federal dövlət departamenti sayılır və özündə ölkənin tarixini, mədəniyyətini və siyasi kursunu əks etdirən, müxtəlif növ sənədləri mühafizə edən bir təşkilatdır. Kitabxana öz fondunu milli kitabxanamız kimi, dövlət idarələrindən, müxtəlif təşkilatlardan hədiyyə yolu ilə, məcburi nüsxələr və ziyalıların şəxsi kitabxanalarından, beynəlxalq kitab mübadiləsi yolu ilə zənginləşdirir. Kitabxana Kanadanın paytaxtı Ottava şəhərində yerləşir, Kanadanın Baş Kitabxanaçısı və Arxivarius tituluna sahib olan direktoru nazir müavinin səlahiyyətlərini daşıyır. Kitabxananın fondu 20 mln çap vahidinə malikdir. Departament 2004-cü ildə Kanadanın parlamenti tərəfindən yaradılmışdır, Kanadanın Milli Arxiv İdarəsi ilə Milli Kitabxanası birləşdirilmişdir. Departamentdə 1152 işçi çalışır. Kitabxana Kanadanın kitabxana və arxiv aktı əsasında idarə olunur. 2009-cu ildən etibarən kitabxananın direktoru, cənab Daniel Karondur [3]. Eyni zamanda kitabxananın filialı da mövcuddur. Filial Kanadanın Kvebek şəhərində yerləşir. Kitabxananın Kanadanın mədəni irsinin qorunmasında əvəzsiz xidmətləri var. Belə ki, kitabxanada müxtəlif növ sənədlər-kitablar, arxiv sənədlər, audio və vizual materiallar, incəsənət nümunələri və s. qorunub saxlanılır. Son 140 il ərzində toplanılan bu sənədlər Kanadanın mədəni irsinin öyrənilməsində mühüm mənbə sayılır. Kitabxananın kolleksiyasında 20 milyona yaxın kitab, 3000-ə qədər memarlıq çertyojları, plan və xəritələr var. Bunlardan ən qədimi 1524-cü ilə aiddir. Elektron formada 4,5 mln. Mb informasiya mövcuddur ki, onların tərkibinə minlərlə dissertasiya, dövrü mətbuat nümunələri daxildir. 30 milyona qədər təsviri nümunələr var. Onlara neqativlər, slaydlar, fotolar daxildir. 90000-ə qədər qısa və tammetrajlı filmlər var. 1897-ci ildən səssiz filmlər də bu kolleksiyaya daxildir. 550000-ə qədər audio və video yazılar saxlanılır. 425000 incəsənət nümunəsi qorunur. Bunlara akvarellər, yağlı boya ilə çəkilmiş rəsmlər, eskizlər, karikaturalar, miniatürlər, möhürlər, gerblər, medallar və plakatlar daxildir. Ən qədimi XVI əsrə aiddir. 550000-ə qədər eksponat mövcuddur ki, bu eksponatlar dünyada Kanadanın ən böyük not nəşrlər fondunu təşkil edir. Eyni zamanda xarici fondda müxtəlif ölkələrlə əlaqəli qiymətli nəşr növləri var.

Bunlardan ölkəmizlə əlaqəli nəşrləri qeyd etmək lazımdır. Azərbaycanla əlaqəli departamentin kitabxanasında 6458 nəşr növünə rast gəlmək olar. Azərbaycanla əlaqəli ingilis, fransız, rus, italyan, ispan, ukrayna, alman dillərində ədəbiyyat var. Bu kitablardan Vladimir Minorskinin “Исследования в истории Кавказа» adlanır. Bu kitabda Şəddadilər dövləti haqqında, Gəncə haqqında müfəssəl məlumatlar var. Kitab Londonda 1953-cü ildə çap olunub. 178 səhifədən ibarətdir. Kitabın içərisində 18 xəritə var. Digər bir kitabın müəllifi Jean Duringdir. Kitab fransız dilindədir. “La musique traditionelle de’l Azerbayjan et la science des mugams” adlanır (Azərbaycanın ənənəvi musiqisi və muğam sənəti” adlanır. Kitab 1988-ci ildə Almaniyanın Baden-Baden şəhərində

nəşr olunub. Kitabda Azərbaycanın musiqi tarixi, muğamları haqqında dəyərli məlumatlar var. İngilis dilində kitablardan "Khojaly tragedy: an international view", "Baku an eventful history", "The Baku Commune 1917-1918", "Caspian oil and gas" və s. göstərmək olar. Qeyd edim ki, ingilis dilində kitabların sayı 2643-dür. Klassiklərimizin əsərləri də şərq fondunda mühafizə olunur. Bunlardan Füzulinin "Hadikatüssuada"(Erenlerin bağçesi) kitabı 1986-cı ildə Ankarada nəşr olunub. "Ulu türk ulusunun şairi Füzulinin divanının şerhi" adlanan kitabda Füzulinin qəzəlləri də verilib. Kitab İstanbulda 1937-ci ildə çap olunub. Füzuli haqqında yazan müəlliflərin nəşrlərinə də rast gəlmək olar. Nümunə olaraq, Cənnət Nağıyevanın "Özbək ədəbiyyatında Füzuli ənənələri", Hanife Konçunun "Bu elamet ile bulur beni soran: Füzuli kitabı", Müjgan Cunburun "Füzuli hakkında bir bibliyografya denemesi", M.Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimlinin "Görünməyən Füzuli" və s. kitabların adını çəkmək olar. Bütövlükdə Füzuli ilə bağlı 165 kitab və elektron formada nəşrlər var. Azərbaycanın dahi şairi Nizami Gəncəvinin əsərləri və onunla bağlı müxtəlif növ nəşrlər şərq fondunda saxlanılır. İngilis dilində "Layla and Majnun" poeması 1997-ci ildə Londonda çap olunub. Tərtibçisi Turner Colindir. 256 səhifədən ibarətdir. Nizami ilə əlaqəli bir çox xarici müəlliflərin də nəşrlərini sadalamaq olar. Bunlardan Johann-Christoph Bürgelin "A key to the treasure of the Khamsa: artistic and the humanistic aspects of Nizami Ganjavi Khamsa"(Xəmsə xəzinəsinin açarı: Nizami Gəncəvi Xəmsəsinin bədii və humanist cəhətləri) adlanır. Elektron nəşr Amsterdamda, Leyden Universitetinin Nəşriyyatında 2011-ci ildə hazırlanıb. Bu elektron nəşrdə 13 xarici alimin esseləri var. Nizami Gəncəvinin "Xəmsə"sindəki surətlərin təhlili verilmiş, eyni zamanda Xəmsədə fəlsəfi, dünyəvi, idealist, mistik fikirlərə də toxunulmuşdur. Nizami ilə əlaqəli müxtəlif növ nəşrlərin sayı 19-dur. Azərbaycanın ümumilli lideri, dahi siyasətçi Heydər Əliyev haqqında 112 adda müxtəlif nəşr formasında sənədlər var. Nəşrlər rus, ingilis və alman dillərindədir. Bu kitablardan Hidayət Orucovun ingilis dilində "Heydar Aliyev and national policy of Azerbaijan", "Haydar Aliyev and national culture heritage", Xatirə Quliyevanın "Heydər Əliyev və mənəvi-estetik dəyərlər" və s. nümunə göstərmək olar [3].

Ökəmizlə əlaqəli nəşrlərlə zəngin olan kitabxanalardan biri də Kopenhagen Kral Kitabxanasıdır. Kopenhagen Kral Kitabxanası Danimarkanın milli kitabxanası sayılır və Skandinaviya ölkələrində ən böyük kitab saxlayıcısıdır. Kitabxananın fondunda böyük sayda tarixi əhəmiyyətli nəşrlər saxlanılır. Burada Danimarkada ilk dəfə 1482-ci çap edilmiş kitabdan tutmuş, XVIII əsrdən başlayaraq çap olunan kitablar saxlanılır. Kitabxana 1648-ci ildə Danimarka kralı II Frederik tərəfindən açılıb. Ümumi istifadə üçün isə kitabxana 1793-cü ildən fəaliyyət göstərir. 1989-cu ildə o, universitet kitabxanasına çevrilib və 2005-ci ildə Danimarkanın Milli Kitabxanası adlandırılıb. İndiki rəsmi adı

Danimarka Kral Kitabxanasıdır. Kitabxananın kolleksiyası 18 növə ayrılıb. Bunlardan Danimarkanın milli kolleksiyası, folklor, qəzet, əlyazmalar, incəsənət, not nəşrləri, xarici, beynəlxalq təşkilatların nəşrləri, nadir kitablar, aerofoto, broşuralar, qravür və rəsmlər, milli foto muzeyinin kolleksiyası, iudaika (yəni yəhudi xalqına məxsus olan qiymətli nəşrlər), xəritələr, Şərq kolleksiyası, soraq-məlumat nəşrləri kolleksiyası, Danimarka ədəbiyyatı kolleksiyasını nümunə kimi göstərmək olar. Kitabxana fondunun ümumi həcmi 35,100.000-dir. Bunlardan 6,400.000-ni kitab və jurnal, 19,900.000-ni qravür, rəsm və fotolar, 7,800.000-ü broşura və korporativ nəşrlər və 1,000.000 digər sənəd növləridir. Rəqəmsal kolleksiyanın həcmi 564, 000 Gb təşkil edir [4]. Kitabxananın direktoru 1986-cı ildən cənab Erland Koldinq Nilsendir. Kitabxananın 668 işçisi var. 1999-cu ildə yeni kitabxana binası istifadəyə verildi. Binanın yuxarı hissəsi oval şəklində qara mərmər, qranit və şüşə ilə örtülüdür və bu səbəbdən bina "Qara almaz" adını alıb. Binada konsert zalı da mövcuddur. Kitabxananın elektron axtarış sistemi "REX" adlanır. Kitabxanada Azərbaycanın mədəniyyəti, incəsənəti, ədəbiyyatı, tarixi iə əlaqəli nəşrlər var. 920 kitab, 9289 jurnal məqaləsi, 21 jurnal, 110 konfrans materialları, 77 dissertasiya, 15 xəritə, 29310 qəzet məqaləsi, 20 səs yazısı, 43 rəsm nümunəsi var. Nəşrlərdən alman dilində Anton Hantschelin "Baku ein kampf um bohrtürme" kitabı 1942-ci ildə Berlində nəşr olunub. Bakı neftindən bəhs edir. Digər kitab ingilis dilindədir. "Excavations in Azerbaijan" (Azərbaycanda qazıntı işi) adlanır. Müəllifi T.Burton-Browndur. 1951-ci ildə Londonda çap olunub. Polyak tarixşünası, Qafqaz, xüsusilə də, Azərbaycan tarixi üzrə mütəxəssis, ABŞ-ın Kolumbiya Universitetinin professoru olan Tadeuj Svitoxovskinin də kitabları kitabxanada mühafizə olunur. Bunlardan "Исторический словарь Азербайджана» kitabı 1999-cu ildə ABŞ-da Lanxem şəhərində çap olunub. Bundan başqa onun "Russia and Azerbaijan: A borderland in transition" (Rusiya və Azərbaycan: Dəyişən sərhədlər) (1995), "Russian Azerbaijan, 1905-1920: The shaping of a national identity in a muslim community" (Rus Azərbaycanı, 1905-1920: Müsəlman cəmiyyətində milli mənliyin formalaşması) (1985) kitablarını göstərmək olar. Kitabxananın fondunda Azərbaycanlı filosof, astronom, riyaziyyatçı, tarixçi, maliyyəçi, ilahiyyatçı və hüquqşünas, dövlət xadimi olmuş Nəsirəddin Tusinin 1594-cü ildə ilk dəfə Romada çap olunmuş "Təhriri Öqlidis" əsərinin yenidən çap olunmuş, ərəb dilində kitabı var. 1997-ci ildə Frankfurtda Höte adına Universitetin Ərəb-islam elmləri tarixi bölməsi tərəfindən çap olunub.

Klassiklərimizdən Füzulinin "Dastan-e Layla və Majnun" əlyazması (1841), XVII əsrə aid olan fars dilində "Dāstān-e Leylī Meğnūn" əlyazması, Nizami Gəncəvinin "Şərəfnamə"si fars dilində (1928), "Seçilmiş əsərləri: 5 cilddə" (1985) rus dilində, Xaqani Şirvaninin "Mədain xərabələri" poeması fars dilində (1923) şərq fondunda saxlanılır. Ümumilikdə Füzuli ilə bağlı 135,

Nizami Gəncəvi haqqında 179 müxtəlif nəşr növləri var [4]. Çox təəssüflə qeyd etməliyəm ki, mənfur və əzəli düşmənlərimiz olan ermənilər çap etdirdikləri kitablarda bizim tariximizi, mədəni irsimizi, öz adlarına çıxarırlar. Bu kitablara həm Kanada Milli Kitabxana və Arxivində, həm də Danimarka Kral Kitabxanasının elektron axtarış sistemində öz ölkəmizlə əlaqəli nəşrləri araşdırarkən rast gəlinir.

Milli Kitabxanamız Azərbaycan mədəni irsinin, tarixinin dünyada təbliği istiqamətində böyük işlər görür [1]. Ümid edirik ki, bu iki kitabxana ilə milli kitabxanamız gələcəkdə ikitərəfli əməkdaşlıq edəcək.

Ədəbiyyat

1. Xələfov A.A., Mehdiyeva N. Müasir dövrdə kitabxana fəaliyyətinin əsas istiqamətləri//Kitabxanaşünaslıq və biblioqrafiya, 2005, №1, s.3-10.
2. Tahirov K. Milli Kitabxananın müasirləşməsində əsaslı dönüş dövrü //Xalq qəzeti, 2013, 6 noyabr, s.5.
3. bac-lac.gc.ca
4. www.kb.dk

Ценные книги о Азербайджане в зарубежных библиотеках мира

Н.Дж.Агаева

РЕЗЮМЕ

В статье даётся информация о различных типах документов связанных с нашей страной, хранившиеся в Национальной Библиотеке и Архиве Канады, а также в Датской Королевской Библиотеке.

Valuable books about Azerbaijan in foreignlibraries in the world

N.J.Aghayeva

SUMMARY

The article provides information about the various types of documents related to our country, which were kept in National Library and Archives of Canada, and in Danish Royal Library.